# Bir ata övladından el oğluna dönənlər

## Masallıda şəhidlər Musa Mustafayev və Əlimərdan Quluzadənin anım günləri qeyd olunub

**Sıravi əsgər Musa Əlövsət oğlu Mustafayev 2001-ci il martın 23-də Masallının Xoşçobanlı kəndində dünyaya gəlib. 9-cu sinfi bitirəndən sonra Göytəpə şəhərindəki Texniki liseydə traktorçu-maşinist, çilingər-sürücü peşələrinə yiyələnib, geniş profilli ixtisaslar alıb.**

Müddətli hərbi xidmətə Cəlilabaddakı "N" saylı sərhədyanı hərbi hissədə başlayan Musa II Qarabağ müharibəsi ərəfəsində ön cəbhəyə ezam olunur, Tovuz döyüşlərində cəsurluq nümayiş etdirir, Füzulidə, Kəlbəcərdə, Cəbrayılda gedən döyüşlərdə xüsusi igidliklə vuruşur. Füzuli uğrunda döyüşlərdən birində şəhidlik zirvəsinə yüksəlir.

Beş bacının yeganə qardaşı olan 19 yaşlı Musa Mustafayev Prezidentin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Baş leytenant Əlimərdan Fəttah oğlu Quluzadə 14 fevral 1993-cü ildə rayonun Yeddioymaq kəndində dünyaya göz açıb.



Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirən, Heydər Əliyevin adını daşıyan Ali Hərbi Məktəbin məzunu olan Əlimərdan 2016-cı il Aprel döyüşlərində və Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Xocavəndin işğaldan azad olunması uğrundakı savaşlarda böyük şücaət göstərib. Füzulidə gedən ölüm-dirim savaşlarında düşmənə qan uddurub. Ağır döyüşlərdən birində qəhrəmancasına vuruşaraq şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülən şəhidin iki qız övladı yadigar qalıb.

Şəhidliyə qovuşmalarının 5-ci ildönümündə Masallı Rayon İcra Hakimiyyətinin rəhbərliyi və əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri və din xadimləri hər iki şəhidin ailəsinə baş çəkmiş, məzarlarını ziyarət etmişlər.

Anım gününüz mübarək, igidlər! Siz Azərbaycanın qəlbində həmişə yaşayacaqsınız.

*Bir ata övladından el oğluna döndünüz.*
*Kim deyər ki, öldünüz, kim deyər ki, söndünüz.*
*Gələcək nəsillərə yetişəcək ününüz.*
*Siz bu gün də, sabah da - əsrlərlə sağsınız,*
*Bu yurdun sinəsində vüqarsınız, dağsınız!*

*Siz yazdınız millətin tarixini qan ilə.*
*Sinənizdə yurd saldı yurda atılan güllə.*
*Məzarınız tutulur min çiçəyə, min gülə.*
*Tərsiniz çiçək kimi, həmişə baharsınız!*
*Azərbaycan köksündə həmişə yaşarsınız!*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 9 oktyabr (№217). - S.12.